

# Lider qətiyyəti ilə reallaşan uğurlu xarici siyasət kursu

## Azərbaycan beynəlxalq miqyasda etibarlı tərəfdaş və böyük nüfuz sahibi kimi qəbul olunur

Son illər beynəlxalq münasibətlər sistemi olduqca ziddiyyətli və gərgin mərhələyə qədəm qoyub. Dünyanın müxtəlif yerlərində yeni müharibə ocaqları yaranıb, mövcud münaqişələr daha da kəskinləşib. Xüsusən Yaxın Şərq ölkələrində baş verən hərbi toqquşmalar, ayrı-ayrı qütblərdə dayanan dövlətlərin intensivləşən siyasi çəkişmələri, geosiyasi mübarizənin və hərbi ritorikanın yüksəlməsi, digər bu kimi ziddiyyətlər beynəlxalq münasibətlər sistemində çətinliklər yaradır.

### Azərbaycanla heç bir qüvvə təzyiq dilində danışa bilməz

Təbii ki, dəyişən və kəskinləşən dünya nizamı beynəlxalq münasibətlər sistemində öz yeri olan hər bir ölkə qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrin yerinə yetirilməsində ən mühüm amillərdən biri, sözsüz ki, xarici siyasətin qarşısında dayanan prioritetlərin yerinə yetirilməsidir. Lakin hazırkı vəziyyət hər ölkəyə müstəqil və milli maraqlara uyğun xarici siyasət yürütməyə imkan vermir. Beynəlxalq münasibətlər sistemində baş qaldıran təbəddülatlar, o cümlədən iqtisadi böhranlar bir sıra ölkələri həyata keçirdikləri siyasətə tamamilə yenidən baxmağa vadar edir. Bəzən isə onlar bu siyasəti kənar təsirlərlə uzlaşdırmaq, müəyyən diktələri qəbul etmək məcburiyyətində qalır.

Hazırda postsovet ölkələrin əksəriyyətində bu mənzərəni görmək mümkündür. Onlardan fərqli olaraq, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tamamilə müstəqil olması bütün dünyanın qəbul etdiyi reallıqdır. Ulu öndərin əsasını qoyduğu siyasi kursu layiqincə davam etdirən və bunu dəyişən dünyanın yeni çağırışlarına uyğunlaşdıraraq daha da zənginləşdirən Prezident İlham Əliyevin hələ illər öncə dediyi "Azərbaycanla təzyiq dilində danışmaq olmaz" ifadəsi real həyatımızda, ölkəmizin xarici siyasətində öz təsdiqini tapmaqdadır. Bu mənada Azərbaycanın xarici siyasət sahəsində ciddi və mühüm uğurları göz qabağındadır. Respublikamızın müstəqilliyinin hələ 20-ci ilində BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, iki dəfə dünyanın ən ali tribunasına rəhbərlik etməsi, beynəlxalq güclər arasında enerji çəkişmələrinin kəskinləşdiyi bir vaxtda öz milli maraqlarına uyğun enerji siyasəti yürütməsi xarici siyasətdəki prioritetlərimizin uğurla reallaşmasının nümunələridir. Son illər müxtəlif adlar altında Qərbə doğru qaz kəmərlərinin çəkilişi ilə bağlı layihələr beynəlxalq gündəmin müzakirə mövzusudur. Onların, demək olar ki, hamısı kağız üzərində qalıb. Azərbaycan isə region ölkələrini və dünyanın iri şirkətlərini cəlb edərək "Əsrin müqaviləsi" ilə müqayisə olunan "Şahdəniz-2" üzrə yekun investisiya qərarını imzaladı və "Cənub qaz dəhlizi"nin inşası ilə irəli sürdüyü təşəbbüsləri reallaşdırmağa başladı. Təbii ki, müstəqil xarici siyasət yürütməyən ölkə bunu edə bilməzdi.

Həmçinin ölkəmizin beynəlxalq təhlükəsizlik məsələlərində ortaya qoyduğu fəal və aparıcı mövqe Azərbaycanın, sözün əsl mənasında, müstəqil dövlət olduğunu və müstəqil siyasət yeritdiyini təsdiq edir. Azərbaycanda xarici hərbi bazanın olmaması da ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin milli maraqlar üzərində köklənməsinin təsdiqidir. Bundan başqa, Azərbaycan xarici siyasətdə elan etdiyi prioritetlərə uyğun olaraq, dünyanın ayrı-ayrı subyektləri ilə özünün siyasi və iqtisadi əməkdaşlığını tamamilə bərabərhüquqlu tərəfdaşlıq formatında qurur. Ölkəmizin beynəlxalq miqyasda əldə etdiyi bu cür uğurlar həyata keçirilən çevik xarici siyasət kursunun bariz nümunələridir. Beləliklə, 1993-cü ildən bu yana reallaşan xarici siyasətimiz bugünkü müstəqil və regionun söz sahibi olan Azərbaycan dövlətinin daha da qüdrətlənməsi prosesinə böyük töhfə verməkdədir.

Enerji və digər iqtisadi layihələr göstərir ki, Azərbaycanın qətiyyətli xarici siyasət kursu region səviyyəsində pozitiv geosiyasi dəyişiklikləri sürətlə stimullaşdırır. Çünki Azərbaycan Cənubi Qafqazın lider dövləti olaraq əməkdaşlıq və inteqrasiya istiqamətində fəaliyyət göstərir. Lakin ölkəmiz yeni beynəlxalq enerji layihələri, iqtisadi əməkdaşlıq proqramları və mədəniyyətlərarası dialoqa xidmət edən tədbirlər həyata keçirdikcə Ermənistanın və digər antiazərbaycançı şəbəkə ünsürlərinin təxribatçılıq hərəkətləri də müşahidə olunur. Bütün bunlar mahiyyətcə Azərbaycana qısqanclığın nümayişidir. Lakin bütün bu təhdidlərə baxmayaraq, Azərbaycanı öz yolundan döndərmək mümkün deyil.

### Dünya birliyi ölkəmizlə hesablaşır

Aprelin əvvəllərində cəbhə xəttində baş verənlər də Azərbaycanın xarici siyasət kursunun növbəti nailiyyətindən qaynaqlanmışdı. Çünki bundan bir neçə gün əvvəl Prezident İlham Əliyevin böyük uğurla başlayan ABŞ səfəri, sözün əsl mənasında, Azərbaycanın xarici siyasətinin mühüm müvəffəqiyyətlərinin sübutuna çevrildi. Bu uğuru həzm edə bilməyən Ermənistan dördgünlük müharibədə layiqli dərsini aldı. İşğalçı ölkənin təxribatlarının qarşısının alınması istiqamətində aparılan əməliyyatlar həm də ölkəmizin hərbi üstünlüyünün praktik təsdiqi oldu. Eyni zamanda bu hadisə Azərbaycanın Dağlıq Qarabağ problemi ilə bağlı yürütdüyü xarici siyasətin də effektivliyini göstərdi.

Bu gün Azərbaycanın xarici siyasətinin başlıca məqsədlərindən biri ərazi bütövlüyümüzün bərpa olunmasına xidmət edən beynəlxalq fəaliyyətin həyata keçirilməsidir. Ermənistanın bütün dünyada işğalçı kimi tanınması, Azərbaycana qarşı hərbi təcavüzünün beynəlxalq ictimaiyyətə çatdırılması ölkəmizin xarici siyasətinin həyata keçirilməsinə iştirak edən bütün subyektlərin fəaliyyətlərində prioritet yer tutur. Xarici siyasətimiz qarşısında hücum strategiyasını müəyyən edən Prezident İlham Əliyev həm də erməni yalanlarının ifşa edilməsi və dünya miqyasında yayılması istiqamətində Azərbaycan diplomatları qarşısında ciddi tapşırıqlar qoyub. Bu istiqamətdə atılan təsirli addımların nəticəsidir ki, Ermənistanın hərbi təcavüzü şəraitində Azərbaycanın ümumi inkişafı və xarici siyasət strategiyası yüz ildən artıq bir dövr ərzində erməni ideoloqları tərəfindən formalaşdırılan böyük bir xülyanı tamamilə boşa çıxarıb. Məhz Azərbaycan dövlətinin güclənməsi fonunda erməni lobbisinin ölkəmizə qarşı təxribatlarının qarşısı alınır və yalanları ifşa olunur. Erməni lobbisinin sıx cəmləşdiyi ölkələrdə belə Azərbaycan həqiqətləri siyasi-ictimai dairələrə sirayət edir.

Aprelin əvvəllərində cəbhə xəttində baş verənlərə beynəlxalq ictimaiyyətdən də reaksiyalar özünü çox gözlətmədi. Bu reaksiyalarda Ermənistanın işğalçılıq siyasəti pisləndi, Azərbaycan torpaqlarının azad edilməsi tələb edildi, ən əsası isə Azərbaycana dəstək ifadə olundu. Siyasətçilərin bəyanatlarında birmənalı şəkildə vurğulandı ki, beynəlxalq təşkilatların erməni silahlı qüvvələrinin işğal altında olan ərazilərdən qeyd-şərtsiz çıxması barədə qəbul etdiyi qətnamələrə baxmayaraq, Ermənistan hələ də Dağlıq Qarabağı və ətraf yeddi rayonu tərk etmir. Prezident İlham Əliyevə zəng edən dövlət başçıları ölkəmizin ərazi bütövlüyünü dəstəklədilər.

Diqqəti çəkən həm də o oldu ki, bu açıqlamaların heç birində Ermənistan hansısa dövlət, təşkilat və siyasətçi tərəfindən, ümumiyyətlə, müdafiə olunmadı. Heç Ermənistanın təmsil olunduğu KTMT də onu müdafiə edən hansısa bəyanat vermədi. Heç bir dövlət başçısı bu hadisələrdə Ermənistanın tərəfində olmadı. İstər Amerikadan, istər Rusiyadan, istərsə də Fransadan verilən açıqlamalarda erməni təəssübkeşliyi görünmədi. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə düşünülmüş və məqsədyönlü xarici siyasətin nəticəsidir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin birinci rübünün sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında respublikamızın xarici siyasətdəki uğurlarından bəhs edərək deyib: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim əsas vəzifəmizdir. Azərbaycan həm siyasi, həm iqtisadi və bütün başqa sahələrdə gücləndikcə, əlbəttə ki, bu münaqişənin həlli daha da yaxın olacaqdır. Biz inkişaf dinamikamızı daha da sürətləndirməliyik və Azərbaycanda dayanıqlı inkişaf davam etməlidir. Son illər ərzində iqtisadi və siyasi sahələrdə əldə edilən uğurlar onu göstərir ki, biz düzgün yoldayıq. Hər zaman olduğu kimi, birinci rübdə də bizim çox fəal xarici siyasətimiz olmuşdur. Ancaq hesab edirəm ki, biz birinci rübdə daha da fəal işləmişik. Mən birinci rübdə bir çox xarici səfərlərdə olmuşam - həm rəsmi, həm işgüzar səfərlərdə. Davos İqtisadi Forumunda, Münxen Təhlükəsizlik Konfransında, Londonda Suriyaya dəstək konfransında iştirak etmişəm. Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə, Amerika Birləşmiş Ştatlarına səfərlərim olubdur. Bütün bu səfərlərin coğrafiyası özlüyündə bir göstəricidir. Onu göstərir ki, Azərbaycan çox fəal və çoxşaxəli xarici siyasət aparır, bizim dostlarımızın sayı artır".

Bu il ərzində isə Azərbaycana çoxsaylı xarici dövlət və hökumət başçısı səfər edib. Onların bəziləri IV Qlobal Bakı Forumunda və BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirak etmək üçün ölkəmizə gəliblər. Bütün bunlar respublikamızın uğurlu xarici siyasətindən xəbər verir. Həmçinin Azərbaycana beynəlxalq ictimaiyyət tərəfindən olan inam artır və ölkəmiz çox etibarlı tərəfdaş kimi tanınır. Qeyd olunanlar təsdiq edir ki, Prezident İlham Əliyevin qətiyyəti ilə reallaşan uğurlu xarici siyasətin nəticəsi olaraq dünya birliyi Azərbaycana böyük hörmət və rəğbətlə yanaşır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***